BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ
№3 Humanitar elmlər seriyası 2008

# ANTİK AZƏRBAYCANDA MÖVCUD OLAN DİNİ DÜNYAGÖRÜŞÜN TƏDQİQİ TARİXİ

F.K.ƏLİYEVA
*AMEA-nın A.Bakıxanov ad. Tarix İnstitutu*

Arxeoloji qazıntılar nəticəsində üzə çıxarılan materialların və yazılı qaynaqların öyrənilməsi həm Atropatena, həm də Qafqaz Albaniyasında mədəniyyətin mühüm tərəflərinin üzə çıxarılmasını mümkün edir. Bu iki dövlətin mədəniyyətləri arasındakı qarşılıqlı əlaqə şəhər və kənd yaşayış məskənlərinin xüsusiyyətləri, mədəni münasibətlər və digər amillər haqqında təsəvvür yaratmağa imkan verir. Arxeoloji tədqiqatlar nəticəsində Azərbaycanın xeyli antik şəhərləri üzə çıxarılmışdır. Ümumiyyətlə, həm şəhərlərin özləri arasında, həm də şəhərlər və kənd yaşayış məskənləri arasında qarşılıqlı təmas mədəni əlaqələr üçün zəmin yaradırdı.

Bildiyimiz kimi, mədəniyyətin öyrənilməsi tarixi prosesin digər sahələrinin qarşılıqlı tədqiqi nəticəsində mümkündür.

Son zamanlar Atropatena və Qafqaz Albaniyası haqqında müəyyən işlər nəşr olunmuşdur. Bu yazılarda ərazi, əhali, təsərrüfat, ticarət, həmçinin ictimai münasibətlər əsasən ön plana çəkilərək, Azərbaycanın antik dövr maddi və mənəvi həyatının əsas atributları, yəni o dövrün adət-ənənələri, hüquqi normalar, öyrənilən dövrün ideologiyasında mühüm rol oynayan dini dünyagörüş kölgədə qalmışdır.

Antik dövr Azərbaycan mədəniyyətini tədqiq edən tarixçinin ixtiyarında yuxarıda qeyd edildiyi kimi, başlıca olaraq, qədim yunan və latın dillərində olan yazılı mənbələr və axıradək aydınlaşdırılmağa həmişə ehtiyacı olan arxeoloji material var.

Xüsusi ədəbiyyat isə Albaniya üzrə çox, Atropatena üzrə isə azlıq təşkil edir.

Bu məqalədə antik Azərbaycan ərazisində mövcud olmuş dini dünyagörüş, konfessiyaları tədqiq edən və yaxud konkret bu məsələnin tədqiqinə yaxın olan elmi araşdırmalar haqqında söhbət gedir.

İstər Azərbaycan ərazisində, istər onun hüdudlarından kənarda zərdüştlüyün əsas istiqamətlərini işıqlandıran və onun tədqiqinə həsr olunmuş çox sayda araşdırmalar mövcuddur. Lakin onu da qeyd etmək lazımdır ki, həm Midiya Atropatena, həm də Qafqaz Albaniyası ərazisində zərdüştlük problemləri hələ kifayət qədər öyrənilməmişdir. Buna görə də, bu haqda fikirlərin kəmiyyəti deyil, keyfiyyəti bizim üçün daha maraqlı olmalıdır.

Antik Azərbaycan ərazisində qonşu ölkələrdə baş verən eyni siyasi, iqtisadi və mədəni hadisələr cərəyan edirdi. Bu, xüsusilə Azərbaycanda olduğu kimi, onun hüdudlarından kənarda olan mədəni dəyişikliklərə aiddir.

Zərdüştlüyün son dövrünə aid nəşr olunmuş işlərdən Artur Kristensenin «İran sasanilərin hakimiyyəti altında» araşdırması yaxşı məlumdur (1).

Kitab zərdüşt dini problemlərinə (1, s. 141-178), Mani və onun konfessiyası, İran xristianları və məzdəkilər hərəkatına həsr olunmuşdur (1, s. 179-362).

İ.M.Dyakonovun «Midiya tarixi» adlanan kitabında Böyük Midiyanın dininə bir fəsil həsr olunmuşdur. Burada zərdüştlük və Avesta problemləri tədqiq olunur. Yeni təlim Midiya hakimləri tərəfindən dəstəklənirdi (2, s. 371-402).

Müəllifin fikrincə, «e.ə. VI əsrdən etibarən zərdüştün təlimi ilə bilavasitə əlaqəsi olan adlar meydana çıxır» (2, s. 373), lakin kahinlər Zərdüştün adı ilə yalnız e.ə. IV əsrdən əlaqələndirilirlər (2, s. 375).

Zərdüştün fəaliyyət məkanı haqqında əsasən iki versiya mövcuddür. Bəziləri Zərdüştü Baktriya, o biriləri isə Atropatena ilə əlaqələndirirlər (2, s. 381). Daha sonra müəllif deyoklar, əhəmənilər və deyokların mədəni siyasətini davam etdirən atropatlar dövründə zərdüştlüyün daha mürəkkəb problemləri üzərində dayanır (2, s. 452).

R.Girşmanın «İran Parfiyalılar və sasanilər» adlı kitabı da çox diqqətəlayiqdir (3). Burada parfiya və sasani dövrlərinin maddi və mənəvi mədəniyyəti tədqiq olunur (3, 15-202).

On il sonra Q.Koşelenkonun «Parfiya mədəniyyəti» kitabı nəşr olundu (4, s. 48-60). Bu işdə Parfiya dövlətinin mədəni nailiyyətləri məsələlərinə kifayət qədər yer ayrılmışdır. Müəllif məbəd memarlığı problemi üzərində daha geniş dayanır. Parfiya dövründəki Midiya haqqında olan bölmə xüsusi maraq kəsb edir (4, s. 48-60).

Müəllifin fikrinə görə, yunan əhalisi Midiyada «kifayət qədər əhəmiyyətli rol» oynamışlar, yerli əhali isə «arşakilərin sadiq dayağı idilər» (4, s. 52).

Q.Koşelenko həmçinin Fraaspa (Taxt-i-Süleyman) şəhəri məsələsi üzərində dayanır. Müəllif Parfiya heykəltəraşlığından da söhbət açır (4, s. 51-60). Q.Koşelenko ümumi mədəni inkişafı xarakterizə edərkən ellin incəsənətinin hakim rol oynadığını, sonra isə «yunanlara aid hər şeyə qarşı qızğın reaksiyanın» əmələ gəldiyini qeyd edir. Müəllifin sözlərinə görə, din sahəsində bu hadisələr «mazdeizmin artmaqda olan təsiri ilə» əlaqədardır (4, s. 60).

«Roma imperiyası və onun qonşuları» adlı kitabın on dördüncü fəsli də İran aləminə həsr olunmuşdur (5, s. 250-269). M.Kollecin «Parfiyalılar» kitabını xüsusilə qeyd etmək lazımdır. Kitab Parfiya dövlətinin ərazi, etnos, roma ilə əlaqələri, iqtisadiyyat, memarlıq və xüsusilə din və digər problemlərinə həsr olunmuşdur (6). Kitabda çoxlu fotoşəkillər, xəritələr və cədvəllər mövcuddur.

B.Brentes də öz əsərində e.ə. I minillikdən Zərdüşt dininə diqqət yetirir (7).

R.Fray «İranın mədəni irsi» kitabının müəllifidir. Kitab öz dərin məzmunu ilə seçilir. Müəllif araşdırmasında zərdüştlüyün konfessional xüsusiyyətlərini dəyərləndirir (8, s. 49-58).

Küp qəbirləri ilə əlaqədar F.Osmanov özünün «Qafqaz Albaniyasının maddi mədəniyyəti» adlı namizədlik dissertasiyasının avtoreferatında qeyd edir ki, bu dəfn adəti Azərbaycanın bir çox rayonlarında qeyd olunmuşdur. Adətin mənşəyinə gəldikdə isə müəllifin fikrincə, onu ya

coğrafi şərait ilə, ya «suya sitayişlə», «ya da ayrı-ayrı tayfaların dini dünyagörüşü ilə» əlaqələndirirlər. F.Osmanova görə, «geniş ərazidə yayılmış bu ənənə əsasən dini baxışlarla əlaqədardır» (9, s. 20).

Öyrənilən istiqamətdə tədqiqatçının digər işi də çox maraqlıdır (10, s. 106-110).

K.Əliyev Qafqaz Albaniyasına həsr olunmuş kitabında bir tərəfdən məbəd torpaqlarının əhəmiyyətini, digər tərəfdən dinin xüsusi rolunu vurğulayır (11, s. 310-312). Müəllif bir neçə alban məbəd birliklərini qeyd edir. Onlardan biri İberiya yaxınlığında, digəri Kürün sahilində yerləşirdi. Daha bir ibadətgah isə Xəzər dənizi adalarından birində yerləşirdi (11, s. 310-312). Kitabın dinə aid olan hissəsində albanların panteonu İranınkı ilə eyniləşdirilir. Belə ki, tədqiqatçıya görə, Zevs, Helios, Selenaya farslar kimi, albanlar da sitayiş edirdilər (11, s. 333).

Oda sitayiş simvolu ibadətdə əsas yer tuturdu. «İstənilən ilahiyə sitayiş Helios, Zevs və Selenanın simvolu olan oda səcdə ilə əlaqədar idi» (11, s. 338).

Bu mövzu haqqında danışarkən İ.Babayevin adını çəkməmək mümkün deyil. Arxeoloq özünün doktorluq dissertasiyanın avtoreferatında torpaq, katakomba, quyu, küp və digər qəbirlər haqqında danışır (12). Müəllifə görə, Albaniyada «böyük təsərrüfat küplərində» dəfn geniş yayılmışdı. Belə ki, Zaqafqaziyada küp qəbirlərin yayılması onu göstərir ki, bu qəbirləri «müəyyən etnosla əlaqələndirmək olmaz» (12, s. 23-24).

M.Boys öz araşdırmalarında Zərdüştün təlimi, həmçinin selevkilər, arşakilər və sasanilərin dini məsələləri üzərində geniş dayanır (13).

F.Əliyevanın antik Azərbaycanın mənəvi mədəniyyətinə həsr olunmuş namizədlik dissertasiyasında şəhər və kənd yaşayış məskənləri, dil, yazı, məbəd, arxeoloji qazıntılar nəticəsində üzə çıxarılmış əşyalar, dəfn adətləri və din problemləri tədqiq edilir (14).

1992-ci ildə K.Əliyevin antik Azərbaycanın din və mədəniyyət problemlərinə həsr etdiyi məqaləsi nəşr olunmuşdur. Burada müəllif İran və Alban ilahiləri arasında bənzərliyi qeyd edir və dinlə dəfn adətlərini əlaqələndirir. Bu istiqamətdə üç ornament tipi ilə seçilən (qazma, relyef və qırmızı rəng ilə) küp qəbirlər mədəniyyəti ön plana çəkilir (15, s. 82-91).

Özünün «Antik Qafqaz Albaniyası» adlı kitabında K.Əliyev mühüm tarixi problemlərin sırasında antik Qafqaz Albaniyasının dini məsələsinə də toxunmuşdur (16). Müəllif qeyd edir ki, əhalinin istənilən ilahiyə qurban gətirmə prosesi oda sitayişlə başlayır (16, s. 157).

Zərdüştdən Məhəmmədədək Azərbaycan ərazisində mövcud olan dini dünyagörüş haqqında olan məqaləyə görə, antik Azərbaycan ərazisində iki dini dünyagörüş hökmranlıq edirdi: Şərq sivilizasiyası ilə sıx bağlı olan zərdüştlük və təkallahlığı təbliğ edən xristianlıq. Bundan başqa, Azərbaycan ərazisində nomadların dini də özünü biruzə verirdi (17, s. 282). Müəlliflərə görə «tarix elminin bütün bu problemləri üzərində hələ çox dayanmaq lazımdır» (17, s. 223).

E.Vəliyev əhəmənilər və arşakilər dövründə bu ərazidə zərdüştlük məsələlərini tədqiq edir. Müəllif son zərdüştlük problemləri üzərində daha geniş dayanır. Tədqiqatçının fikrincə, Atropatena zərdüştlüyün mərkəzlərindən biri olmuşdur (18).

Arxeoloji materiallar üzrə zərdüşt dininin öyrənilməsində F.Abbasovanın tədqiqatının çox böyük rolu olmuşdur. Onun 2004-cü ildə nəşr olunmuş «Azərbaycan orta əsr zoomorf əşyaları» adlı kitabında erkən

orta əsrlərdə zərdüşt dininin aktual problemləri qaldırılmışdır. Yazılı mənbələrə əsaslanaraq müəllif maddi mədəniyyət əşyaları üzərindəki şəkilləri nəzərdən keçirir. Bu təsvirlərə qaban, şir, tülkü, it, at, maral, həmçinin balıq, ilan, göyərçin, qartal şəkilləri aiddir. F.Abbasova zərdüştlüyün öyrənilməsində ilk dəfə olaraq, maddi və mənəvi mədəniyyət arasında oxşarlığın, bərabərliyin və əlaqənin olduğunu göstərir. Müəllif qeyd edir ki, atəşpərəstlərin dini orta əsr Qafqaz Albaniyası ərazisində də geniş yayılmışdır (19).

Antik Azərbaycan mənəvi mədəniyyəti çox böyük maraq kəsb edir. Öz işlərində F.Əliyeva tarixi ədəbiyyatda mədəniyyətin öyrənilməsi, din, adət-ənənə, dəfn adətləri, əfsanələr, kommunikasiyalar, məbəd və antik Azərbaycanın digər xüsusiyyətləri üzərində dayanır. Müəllifə görə, antik dövr–qeyri yerli ellinizm və öz kökləri ilə qədimlərə gedib çıxan yerli ənənələrin çulğalaşması dövrüdür (20, s. 106-109).

Dini konfessiyalar haqqında tarixi ədəbiyyatın öyrənilməsi göstərir ki, uzun müddət kəsiyində antik Azərbaycanın mənəvi mədəniyyəti kimi mühüm məsələyə tədqiqatçılar tərəfindən kifayət qədər diqqət yetirilməmişdir.

Antik Azərbaycan ərazisində zərdüştlüyün tarixi üzrə icmal bir daha Azərbaycanda zərdüşt dininin daha geniş öyrənilməsinə ehtiyac olduğunu nümayiş etdirdi. Bu dövr dininin öyrənilməsi həm Midiya Atropatena, həm Qafqaz Albaniyası mənəvi mədəniyyətinin aydın olmayan tərəflərinin üzə çıxarılmasına yol açır.

Ümumiyyətlə, Azərbaycanın antik dövrünün öyrənilməsində ya ayrı-ayrılıqda Atropatenanın, ya da Albaniyanın problemlərinə diqqət yetirilmişdir. Tədqiqatçılar bu ölkələri birləşdirən siyasi, iqtisadi və mənəvi planda ümumiliyi kənara qoymuşdular. Bu rakursda Avtopatenanı Albaniyasız, Albaniyanı isə Atropatenasız anlamaq mümkün deyil.

### QEYDLƏR:


1. Christensen A. L'Iran sous les sassanides. Copenhague: Ejnar Munksgaard, 1944, 560 p.
2. Дьяконов И.М. История Мидии. Москва: Изд-во АН СССР, 1956, с. 371-402.
3. R.Ghirchman. Iran. Parthians and sassanians. Printed in France. 1962, Thames and Hudson, 347 p.
4. Кошеленко Г.А. Культура Парфии. Москва: Изд-во Наука, 1966, 218 с.
5. Fischer Weltgeschichte, band 8. Richard Frye. Kapitel 14. Das Romisch Reich und seine Nachbarn. Die Mittelmeer-welt. Herausgegeben von F.Millar, 1966, s. 250-269.
6. Malcolm A.R.Colledge. The Parthians. London, 1967, 243 p.
7. B.Brentjes. Die Iranische Welt vor Mohammed. Koehler und Amelang, 303 s.
8. Фрай Р. Наследие Ирана. Москва: Изд-во Наука, 1972, с. 49-58.
9. Османов Ф. Материальная культура Кавказской Албании (III в. до н.э. - III в. н.э.). Автореферат канд. ист. наук. Баку: 1968, с. 20.
10. Османов Ф. Находки кувшинных погребений в с.Ханларкенде. Доклады АН Азерб. ССР, 1975, 2, с. 106-110.
11. Алиев К. Кавказская Албания. Баку: Изд-во Элм, 1974, с. 310-357.
12. Бабаев И. Города Кавказской Албании в IV в. до н.э. - III в. н.э. Москва: 1982, 40 с.
13. Бойс М. Зороастрийцы. Верования и обычаи. Москва: Изд-во Наука, 1987, 302.с.
14. Алиева Ф. Духовная культура античного Азербайджана. Афтореферат на соискание учёной степени канд. ист. Наук. Баку: 1991, 21 с.
15. Алиев К. Вопросы духовной культуры и религии античной Кавказской Албании. Известия АН Азербайджана (серия истории, философии и права), 1992, 3-4, с. 82-91.

16. Алиев К. Античная Кавказская Албания. Баку: Изд-во Азернешр, 1992, 136 с.
17. Алиев К., Алиева Ф. Религия Азербайджана от Зороастра до Магомета. Şərqin актual problemləri: Tarix və müasirliк. Bакı: 2001, s. 282.
18. Велиев Э. Зороастризм в Азербайджане в раннее средневековье. Автореф. канд. дисс. Баку: 2001, 30 с.
19. Abbasova F. Azərbaycan orta əsr zoomorf əşyaları. Bакı: Elm, 2004, 238 s., 32 tabl.
20. Алиева Ф. Предметы духовной культуры античного Азербайджана. Азербайджан и азербайджанцы, 2005, 1-6, с. 106-109.

## ИСТОРИОГРАФИЯ ПО РЕЛИГИОЗНЫМ МИРОВОЗЗРЕНИЯМ АНТИЧНОГО АЗЕРБАЙДЖАНА

**Ф.К.АЛИЕВА**

### РЕЗЮМЕ

В этой статье говорится о научных исследованиях, которые посвящены религиозным мировоззрениям, существовавшим в античном Азербайджане.

## THE HISTORIAN OF EXICTING RELIGIOUS OUTLOOK IN ANCIENT AZERBAIJAN

**F.K.ALIYEVA**

### SUMMARY

It is noted in the article that the materials discovered at the result of archeological excavation and learning the written sources make possible to discover the main sides of culture both on Atropaten and in Caucasus Albania. There is mainly written in ancient Greek and Latin languages and archeological materials which needs explanation are in the author's power who is investigating the ancient period of Azerbaijan culture.

Besides it there exist a special literature. The author speaks about this special literature in the article and noted that this special literature is very much in the point of Albaniya and is very few according to Atropoten. There author used sufficiently literature for this article. There mentioned the names of such authors as I.M.Dyakonov, Q.A.Koselenko, B.Brentyes, R.Aliyev, F.Osmanov in the artecle.